# İKİ MÜAVİN, BİR QADASI

Işin axırı idi. Möhsünzadə, müavinləri ilə kabinetdə oturub söhbət edirdi. Birdən yadına nə düşdüsə, qarşısındakı təqvimi vərəqləyib xəbər aldı:

- Bu gün ayın doqquzudur?

Müavinlər eyni vaxtda cavab verdilər:

- Bəli.

Başını tərpədə-tərpədə müdir gülümsədi:

-Paho”.. Sabah... mənim əlli beş yaşım tamam olur.

- Keçirmək lazımdır, yoldaş Möhsünzadə, - deyə birinci müavin zarafatyana dilləndi. Ikinci də onun sözünə qüvvət verdi:

- Mütləq!

Müdir əzilib – büzülərək tərəddüd elədi:

- Bilirsiz, keçirərdik... Ancaq bizim arvad bir az nasazdır. Əziyyət filan vermək istəmirəm ona.

- Restorana nə gəlib! – deyə birinci müavin vəziyyətdən çıxış yolu tapdı.

- Əlbəttə! – İkinci müavin də bu təkliflə razılaşdı.

Dilinin bəlasına düşən  Möhsünzadə  əlacsız qaldı. Potmanetini çıxarıb pullarını saydı.

- Qırx  manat. Bəsimizdir. Onda sabah ikinizi də restorana şama dəvət edirəm.

- Mən hazır!

- Mən də!

- Ancaq bir şərtlə, - deyə müdir yalvarıcı tərzdə əlavə etdi. – İdarədəkilər bilməsin.

Birinci müavin göy gözlərini bərəldib, sarı qaşlarını alnına qaldırdı.

- Niyə?!. Istəyirsiz lap onlardan da üç-dörd nəfərini çağıraq. Siz xərcindən qorxmayın.

- Yox, canım...  Çox səs-küyə salmaq lazım deyil.

- Lazımdır! – deyə bu dəfə ikinci müavin armud saplağı kimi nazik böğazını dartıb, qara bığlarını çeynəyə-çeynəyə sinəsini qabağa verdi, Restoranın xərcini mən götürürəm boynuma. Həm də idarədən  üç-dörd nəfər yox, kimi xətriniz istəyir çağırin!

Bu söz birinci müavinə toxundu.

- Güya biz onu bacarmırıq?! Yoldaş Möhsünzadə, lap on nəfər çağırın. Qulluğunuzda mən hazıram!

Ikinci müavin bir az da kişiləndi. Əl-qolunu ölçə-ölçə dedi:

- Niyə on nəfər?!  Idarə işçilərimizin hamısını çağıraq. Qoy heç kəs inciməsin kişidən. Bütün xərci mən çəkəcəyəm.

- Xeyr! Bizbəyəm ölü milçək zadıq?! Hər halda bir müavin kimi, yoldaş Möhsünzadəyə mən səndən yaxınam.

- Onun bu işə dəxli yoxdur!

- Dəxli çoxdur!

- Yaxşı!.. Dalaşmayın! – deyə müdir ətli sir-sifətini turşudub onları sakitləşdirməyə çalışdı – Ya sən, ya o... Nə fərqi var!...

Müavinlər ipə- sapa yatmadı. Birinci ikincidən, ikinci birincidən geri qalmaq istəmirdi.

- Bax... bu başdan sizə deyirəm yoldaş Möhsünzadə, restoranda o əlini cibinə salsa məndən inciməyin.

Ikinci müavin yenə də xoruzdandı.

-Görərik!

Müdir əsəbiləşərək ayağa qalxdı və ərklə onların üstünıə çımxırdı.

- Əşi, yekə adamlarsız! Indidən höcət eləməyin, mənası nədir! Əfisant hansınıza yanaşar, o da çıxardıb verər stolun haqqını. – Sonra səsini dəyişərək sözünə davam etdi. – Ancaq işçilərə bildirməyin ki, Möhsünzadənin ad günüdür-mad günüdür. Elə deyin, sabah işin axırında iclasımız olacaq. Qoy hamısı hədiyyəsiz-mədiyyəsiz toplaşsın kabinetə. Buradan da sakitcə durub gedərik restorana. Əvvəlcədən hazırlıq-mazırlıq görmək lazım deyil. Yemək – içmək sifarişini də elə orda verərik.

- Hansı restorana yığışaq? – deyə birinci müavin soruşanda ikinci lovğalıqla cavab verdi:

- “İnturist”ə!

Müdir razılaşmadı:

- Yox... Elə bu yanımızdakı “Nuşi-can” restoranına...

***

Evə gedəndə müavinlər dəhlizdə qarşılaşdılar. Qanları qara idi.

- İşə saldın bizi də. Sənin dilinin bəlasına düşdük. O qədər adamın bir aləm xərci çıxacaq.

Ikinci maraqlandı:

- Cəmi neçə işçimiz var ki?

- İyirmi dörd nəfər.

- Nə qədər xərci çıxar təxminən?

- Azından yüz əlli manat

- Onda bəs neyləyək?

- İstəyirsən yarı-yarıya qoyaq.

Ikinci nə düşündüsə razılaşmadı.

- Daha keçib. Eybi yoxdur. Hamısını mən verərəm.

- Ona qalsa elə mən də verə bilərəm. məsələ pulda deyil

- Bəs nədədir?

- Bir yol kişinin yaşında özümüzü göstərməliyik ya yox. qoy deməsin müavinlərim fərsizdir.

- Elədir...

Ayrıldılar. Ikinci müavin izi azdırıb “Nuşi-can” restoranına getdi.

Müştərilərin hamısına “Qadası” dediyindən öz adı da “Qadası” qalan tanış xörəkpaylayanı tapıb bir qırağa çəkdi:

- Sabah axşam  saat altıda burada müdirimizin az gününü keçirəcəyik. – deyə astadan məsələni ona izah etdi. – bizim üçün iyirmi dörd nəfərlik yer hazırlayarsan..

- Baş üstə!

- Özümün də səndən ciddi bir xahişim olacaq.

- Buyur, qadası.

- Stolun haqq-hesabını verəndə mən də pul çıxaracağam bir başqası da. Müdirin yanında sənə çox hərbə-zorba gələcəyəm, üstünə qışqıracağam... Ancaq pulu məndən yox, o biri müavindən almalısan.

- Anladım! – deyə “Qadası”  bic-bic gülərək əlini qabağa uzatdı.- Çək gəlsin!

Ikinci müavin onun ovcunu şappıldatdı.

- Yaxşı... bəs bu işdə mənim gəlirim nə olacaq, qadası? – deyə xörəkpaylayan maraqlandı. Müavin dinməzcə bir qırmızı onluq çıxarıb onun döş cibinə basdı.

- Az verdin.

- Çox danışma! Bəsindir. Bu məsələni bir sən bilirsən, bir mən.

- Arxayın ol. Deyə “Qadası” göz vurub pul qoyulan cibini sığallaya-sığallaya uzaqlaşdı.

***

Sabahı axşam saat altı tamamda idarənin bütün işçiləri – qızlar, qadınlar, oğlanlar, kişilər müdirin otağında keçiriləcək “iclasa” toplaşmışdılar.

Stolun arxasında əyləşmiş müdir müvinlərinə baxıb gülümsəyirdi.

- Deməк, məsələ belədir, yoldaşlar. – deyə bu gün xüsusi səliqə ilə geyinmiş Möhsünzadə dikəlib məlumat verdi: - Sizi çağırmaqda məqsədimiz tamam başqadır. Iclas-miclas olmayacaq? Burdan sakitcə durub gedirik “ Nuşi – can” restoranına. Müavinlərim mənim üçün ad günü keçirirlər. Əlli beş yaşım...

Işçilər müdiri axıracan danışmağa qoymadılar. “Ura” çığırıb əl çaldılar, onu təbrik etdilər:

- Çox mübarək!..

- Xoşbəxt olasınız!..

- Sizə müvəffəqiyyətlər!..

...Bir azdan hamısı “ Nuşi – can” restoranında “Qadası”nın baş-başa açdığı stolların ətrafında oturmuşdu.

Müavinlər ikisi də ayaq üstdə sərpayılıq edirdi.

Müdirin yanında səxavət kisələrinin ağzını açmışdılar. Heç biri xərcin çoxluğundan qorxmurdu. Öz aralarında bəhsə girib çoxlu sifariş verməklə yarışırdılar:

- Qadası, şampanskini dörd dənə elə!

- Dörd az olar, altısını gətir!

- Qadası kürü yadından çıxmasın1

- Qarasından da ver, qırmızısından da!

- Qadası, konyak üç-dörd şüşə!

- Özü də beşulduzdan!

- Qadası, sonra tabaka!

- Ardınca da plov!

Bu vaxtadək nə müdir, nə də idarə işçiləri müavinlərin belə əliaçıq olduqlarını bilmirdilər.

On dəqiqə keçməmiş stolların üstü yemək – içməklə doldu. Gətirilən mətahları düzməyə yer çatışmırdı.

Müdirin şərəfinə sağlıqlar başlandı.

Ikinci müavinin xətri istəsə də çox içmirdi. Özünü saxlayırdı.

Məclis gecəyədək uzandı. Möhsünzadənin əlli beş illik ömründə ad günü heç vaxt belə təmtəraqlı keçməmişdi...

- Hesabını çək! Pulunu da məndən alacaqsan! – deyə qonaqlar qalxmağa hazırlaşanda birinci müavin “Qadası” nı yanına çağırdı və şəstlə əlini cibinə salaraq müdirin yanında qürrələndi.

Ikinci müavin də özünü qabağa verdi:

- Elə zarafat yoxdur! – sonra əvvəlcədən şərtşəsdiyi kimi xörəkpaylayanı hədələdi: - eşitdin nə dedim?!

Qadası çötkənin dənələrini sağa-sola şaqqıldadıb balaca dəftərçə vərəqəsinə yazdığını cıraraq cəld ikinci müavinə uzardı:

- Buyur! Yüz doxsan yeddi manat əlli qəpik!

- Nə qədər?!

Qadası bir də təkrar etdi.

Ikinci müavin gördüyünə də, eşitdiyinə də inanmadı. Gözləri bərələ qaldı. Xörəkpaylayana nəsə demək istədi, ancaq dili-dodağı quruduğundan danışa bilmədi. Naəlac çıxarıb stolun haqqını ödədi...

Camaat dağılışdı. Lap axıra tək ikinci müavin qalmışdı. O hələ də özünə gəlməmişdi. Xörəkpaylayan süfrəni yığışdıranda zarıltılı bir səslə onu çağırdı:

- Qadası, bu nə oyun idi çıxartdın mənim üçün? - deyə qalstukunun düyününü aşağı dartıb, xəbər aldı. Xörəkpaylayan heç bir şey olmamış kimi gözlərini döydü.

- Mən neylədim ki?!

- Adə, ay naxələf, dünən səninlə danışmadıq?!

- Danişdiq.

- Üstəlik sənə bir qırmızı onluq vermədim?

- Verdin, qadası.

- Gözündən gəlsin! Yaxşılığımın əvəzini belə çıxdın?

- Bəs mən necə edəydim?

- Haqq- hesabı o biri müavindən alsaydın, əlin quruyardı?!

Xörəkpaylayan böynunu qaşıyıb dişlərini ağartdı.

- Axı... birinci müavin qabaqcadan iyirmi vermişdi ki, ondan almayım...

- Sənin adın qalsın, Qadası!...

*23 fevral, 1975.*